

# Gülxani PƏNAH-65

Hörmətli Gülxani Pənah!

Siz 1974-cü ildən mətbuatda şeir, hekayə, poema və elmi-publisist yazılarla çıxış edirsiniz. Hələ tələbəlik illərindən şeirləriniz müxtəlif illərdə çap olunmuş almanaxlara daxil edilmişdir.

"Yurd yanğısı", "Göydən ulduzları gözlə dərərdik", "Oğuz şəhidləri, itkinləri", "Bura Vətəndir", "Qarabağ dərdi", "Killer", "Ümidinə qəm çiləyənlər", "Anaruh" kimi otuzdan çox poeziya və nəsr kitabların müəllifisiniz. Xocalı soyqırımına həsr olunmuş "Fələk belə qismət yazmaz, Xocalı", "Tanrının unutduğu Xocalılar", "Xocalı..." kitablarınız türk, rus, ingilis dillərinə tərcümə edilərək dünyanın bir çox ölkələrinə yayılmışdır. "Xocalı, ay Xocalı", "El bir olsa...", "Sınaq" kimi tarixi dram əsərlərin, bir çox ssenarilərin müəllifisiniz. Müəllifi olduğunuz onlarla marşlara, şeirlərə musiqi bəstələnmişdir.

Azərbaycan Yazıçılar Birliyinin ədəbi janrlar şöbəsinin müdiri, filologiya üzrə elmlər doktorusunuz. Azərbaycan ədəbiyyatşünaslığının və ictimai fikrin inkişafında xüsusi yeri olan, orijinal axtarışları ilə elmimizə sanballı töhfələr vermiş nüfuzlu alimlərimizdənsiniz. "İlyas Əfəndiyev yaradıcılığında folklor motivləri" mövzusunda namizədlik, "Klassik Azərbaycan ədəbiyyatının elmi-nəzəri, tarixi problemlərinin kompleks tədqiqi" mövzusunda doktorluq işi müdafiə etmişsiniz. Elmi araşdırmalarınız Azərbaycan ədəbiyyatşünaslığının və folklorşünaslığının bütün sahələrində elmi-nəzəri fikrin daha da inkişaf etdirilməsinə xidmət edir. "Yazıçı və folklor", "Sənətkar və poeziya", "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı", "Mir Cəlalın elmi-nəzəri görüşləri", "Azərbaycan ədəbiyyatında detektiv janr", "Azərbaycan ədəbiyyatı məsələləri", "Yaradılış, İdrak və Həyat fəlsəfəsi-Novruz-Yenigün" və s. kimi 30 elmi monoqrafiyanın, 400-dən çox elmi məqalənin, 25 ədəbi-bədii əsərlər toplusunun, 20-dən çox tərtib kitabın və bir dərsliyin müəllifi, yüzdən çox kitabın redaktorusunuz.

Azərbaycan ədəbi mühitində nüfuzlu yazar qadın, ictimaiyyətçi kimi tanınırsınız. Respublikamızın ictimai həyatında yaxından iştirak edirsiniz. Müstəqil Azərbaycan Respublikası ilk Qadınlar qurultayına, Yazıçılar və Jurnalistlər Birliyinin qurultaylarına, Müəllimlər qurultaylarına nümayəndə seçilmişsiniz. Azərbaycan Yazıçılar Birliyinin Qadınlar Şurasının sədri, "İskit" jurnalının baş redaktoru, İLESAM-ın üzvüsünüz.

Ədəbi-bədii, elmi publisist yaradıcılığınızla bağlı monoqrafiyalar, yüzlərlə resenziyalar çap olunmuşdur. 30 cildlik "Seçilmiş əsərləri"nizdən on iki cildi artıq işıq üzü görmüşdür Dünyanın bir sıra Beynəlxalq elmi-ədəbi simpoziumlarında, konfranslarında çıxış etmisiniz, Amerika, Rusiya, Ukrayna, Avropa və Şərq ölkələrinin nüfuzlu jurnallarında Azərbaycan ədəbiyyatıyla bağlı məqalələriniz dərc olunub.

Yaradıcılıq və innovasiya sahəsində nailiyyətlərinizə görə fəxri fərmana, ümumtürk mədəniyyəti və ədəbiyyatına xidmətlərinizə görə Mövlanə Rumi mükafatına, Beynəlxalq Mahmud Kaşqari medalına, 2019-cu ildə ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinizə görə AMEA-nın Ədəbiyyat İnstitutunun "İlin alimi" adına (2019), İsmayıl Şıxlı mükafatına, "Qızıl Qələm" Media Mükafatına, Azərbaycan Müdafiə Nazirliyinin Birinci dərəcəli diplomlarına, fəxri fərmanlara, bir sıra Beynəlxalq təşkilatların mükafatlarına layiq görülmüşsünüz.

Bu gün də böyük həvəs, enerji və fədakarlıqla çalışaraq, ölkəmizdə humanitar və ictimai elmlərin, o cümlədən ədəbiyyatşünaslıq elminin və ədəbi-ictimai fikrimizin, müasir Azərbaycan cəmiyyətinin inkişafına şərəflə və məsuliyyətlə xidmət edirsiniz. Əsərləriniz türk, rus, fars, ingilis, alman və s. dillərində çap olunub.

Hörmətli Gülxani xanım!

Sizi 65 illik yubileyiniz münasibətiylə təbrik edir, böyük yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**